

*Elçin* Mehrəliyev
*yazıçı-publisist,*
*filologiya elmləri doktoru*

# ÖMRÜN PAYIZ NƏĞMƏLƏRİ

***Təxminən əlli il əvvəl jurnalistika fakültəsində bir yerdə oxuduğumuz, indi mənsub olduğu yaradıcı nəslin istedadlı nümayəndələrindən olan tələbə yoldaşımız Səməd Məlikzadənin yetmiş illiyinə az qalır. Bəri başdan yubileyini təbrik edir, uzun ömür arzulayıram!***

***...Və bu sətirləri yazarkən tələbəlik illərinin sütül gəncliyini əks etdirən bəxtəvərlik şəkillərimizə baxa-baxa düşünürəm: hə, illər sürətlə keçir, biz - dünənki uşaqlar da tanınmaz dərəcədə dəyişmiş, qocalmışıq, yalnız bir yerə yığışanda sanki zamanı aldadıb gəncləşirik. Bir vaxtlar "görüş" təşəbbüsü Adil Qaçayoğludan gələrdi, indi rəhmətliyin missiyasını Səməd davam etdirir. Bizə yenidən gənclik anlarını yaşatdığına görə də ona təşəkkürümü bildirir, "Yaşa, qardaş, yüz yaşa!" - deyirəm.***

Biz - tələbə dostları onu milli mətbuatımızın banisi, böyük maarifçi və ictimai xadim Həsən bəy Zərdabi (Məlikov) ilə müqayisə etmək fikrindən uzağıq, ən azı ona görə ki, Həsən bəy millətlə bağlı ali məramına görə bu gün də ziyalılarımızın (o cümlədən Səmədin) ən böyük ideallarından biridir. Hərçənd ki, bizim Səməd bir çox cəhətləri ilə istər-istəməz o rəhmətliyi xatırladır: məsələn, arıq, qıvraq vücudu və bu vücuda nurani görkəm verən çallaşmış saqqalı ilə; daim sonsuzluğa dikilən nigaran, qayğılı baxışları ilə; millətinin əmin-amanlığına, yaşadığı cəmiyyətin durulmasına yönəli jurnalist fəaliyyəti ilə. O da Həsən bəy Zərdabi kimi torpağa, təbiətə bağlıdır, qələmə aldığı yazılardan fəsillərin rəngi, rayihəsi duyulur. O da Zərdabi kimi heç bir təmənna güdməz, haramla işi yoxdur, haqqın tərəfindədir. Kiməsə, nəyə görəsə yaltaqlanmaz, özü demiş, sadəcə başını aşağı salıb qəzetçiliyini edib, yazanda elə yazıb ki, heç vaxt vicdan əzabı çəkməsin. O da Zərdabi kimi heç bir təltif, mükafat görməyib. Onun da Zərdabi kimi işsiz qalan vaxtları olub. Zərdabi kiçik yaşlı iki qızını itirdiyi kimi, o da erkən ömür-gün yoldaşını və cavanca oğlunu itirib. Zərdabi qocalığında doğma kəndi Zərdaba dönüb, ağcaqanadlı torpağını bütün məkanlardan üstün tutub, Səməd də üzü yetmişində doğma kəndi Cəfərliyə qayıdıb. Bir sözlə, biz zahirən Zərdabiyə oxşatdığımız dostumuzu tale yaşantısına və mənəvi-əxlaqi keyfiyyətlərinə görə də o rəhmətliyə bənzədirik.

Düz 50 il sərasər mətbuat aləmində çalışıb, neçə-neçə qəzet və jurnalla əməkdaşlıq edib: "Yeni Şirvan" (Şamaxı rayonu) qəzetində şöbə müdiri, "Azərbaycan aqrar elmi" jurnalında redaktor, "Avrasiya" qəzetində baş redaktorun müavini, "Yeni Azərbaycan" qəzetində məsul katib, "Ekskluziv" informasiya agentliyində redaktor, "Tumurcuq" qəzetində baş redaktor və s. və i.a.

Uzun illər redaktorluq etdiyi "Tumurcuq" uşaq mətbuatı tariximizdə silinməz iz qoyub. Bu barədə söz açan görkəmli yazıçı Əlabbasın fikirlərinin dəqiqliyinə şəkk-şübhə yox: "Azərbaycan mətbuatının tərəqqisi və inkişafı yolunda ömrünü, necə deyərlər, şam kimi əridən Məlikzadə o ömrün sər-tamam 16 ilini "Tumurcuq"un baş redaktorluğuna həsr edib. Uşaq qəzetinin naşiri olmaqdan az-çox başı çıxan biri kimi deyirəm bu sözü: hesab eləyin ki, Səməd 32 il baş redaktor olub. Bu işin məxsusi bir çətinliyi həm də orasında idi ki, tək qəzetlərin deyil, kitabdan tutmuş jurnal və toplulara qədər bütün çap məhsullarının partapart kirillə dərc olunduğu bir dönəmdə "Tumurcuq" respublikada latın qrafikası ilə işıq üzü görən birincisi idi". ("Bizim alın yazımız", Bakı, "Zərdabi Nəşr" MMC, 2022, s.261). Başqa bir dəyərli fikir və təşəbbüs isə istedadlı şairimiz Vaqif Bəhmənliyə məxsusdur, o, Səmədə xitabən belə yazır: "Əzizim Səməd... Təbii ki, şəxsiyyət və xarakter boy-buxuna, maddi imkana baxmır. Bu mənada, mən səni öz inandığı yolu, yəni jurnalistika yolunu darıxmadan, səliqə-sahmanla və səhv buraxmamağa çalışaraq gedən peşəkar jurnalist, redaktor sayıram. Sən uzun illər "Tumurcuq" adlı çox maraqlı, indi üst-üstə yığıb çap eləsən möhtəşəm bir uşaq bədii ensiklopediyası alına bilən qəzetə rəhbərlik etmisən". (Yenə orada, s.273). Səməd həm də üç kitab müəllifidir. Əslində, təzəcə işıq üzü görmüş, Azərbaycan Dövlət Universiteti jurnalistika fakültəsinin 1976-cı il məzunlarının ömür yolundan bəhs edən "Bizim alın yazımız" adlı müxtəlif imzalı məqalələr toplusu da onun israrlı təşəbbüs və zəhmətinin məhsuludur. Kitabın məsuliyyətlə redaktəsi, nəfis tərtibatı və bu topluda nəşr edilmiş silsilə yazıları Səmədin peşəkarlıq səviyyəsinin, zövq və səmimiyyətinin parlaq göstəricisidir.

"Ürəyimə yazılanlar" adlı növbəti kitabı isə çap prosesindədir. Tezliklə oxucuların təqdim edəcəyi bu kitabda son illərdə qələmə aldığı publicist yazıları, sənət adamları ilə bağlı portret oçerkləri və bədii yazıları toplanıb.

Təqaüddə olmasına baxmayaraq, qələmi yerə qoymur, illah da indi medianın daha populyar qolunu təşkil edən İnternet vasitəsilə - Feysbuqda təqdim etdiyi xırda yazılar həm böyük mətləblərə toxuna bilmək, həm də dil-üslub şirinliyi ilə maraq doğurur. Məlumdur ki, xırda sayt yazılarında ciddi məsələləri mövzuya çevirmək və təhlil etmək hər yazarın işi deyil, amma Səməd bunu bacarır, cəmiyyətdə baş verənləri, problemlərimizi ustalıqla "incələyir", ən kəskin sözünü belə Mirzə Cəlil sayağı - qələminə "bal" qatıb deyir, Sabiranə eyhamlarını şəkərləyib "yedizdirir", - bir kimsəni incitmək yox, hamının yaxşılığına can atmaq istəyi var onda. Bir neçə misal:

"...Əcaib-qəraib kəpənəklər daraşıb məmləkətə. Haradan gəlib, kim göndərib, dəqiq bilən yoxdur. .. Onu da deyim ki, urus sovet olandan axıradək bu kəndə sarı adam ayağı dəymədi... İndi hər səhər durub görürsən ki, pəncərənin qabağı sarı-sarı kəpənəklə doludur. Həyətdə də ora-bura uçuşurlar... Məni qınamayın, deyirəm, bəlkə bu ya kitayların, ya da sülhməramlıların hoqqasıdı..."

"Deyirəm, adam burada darıxar, ee. Küçəyə zibil tökmə, maşınını yolun ortasında saxlama, yaşıllıqları qırma, qonşunu narahat eləmə! Daha bunun nəyi birgəyaşayış oldu... Heyif deyil Yasamal!"

"Deyirdilər, bu gün yağış yağacaq, tufan olacaq. Yenə isti qovurur bizi... Nooldu bəs, Umayra xanım? "

Yaxud götürək alma haqqındakı xalq deyimlərinin Səməd mobilində çözümünü:

"...Qubanın ağ alması, Yeməyə var alması. Yarım gələnə qalıb, Yaramın sağalması." - Rəhmətliyin nəvəsi, hardadı



o deyilən ağ alma? Hara baxırsan introduksiya olunmuş sortlardı.

"Almanı atdım xarala, Qaldı sarala-sarala..." - Əmioğlu, əgər keçən il atmısansa, çoxdan xarab olub. Gərək yeşiklə soyuducuya ataydın. İndi meyvəni bu ildən o biri mövsümə ancaq belə saxlamaq olur, o da büzüşür. Niyəsini daha özün bilməmiş olmazsan...

"Almanı say ye, Armudu soy ye" - Çox doğru deyiblər, indiki almaların qabığı adamın ağzını cırır... Amma o "armudu say ye"dən bir şey anlamadım. Yəni, çox armud yemək qarın üçün qorxuludu, yoxsa cib üçün?

"Almanı at göyə, yerə gəlincə, ya nəsib! " - Doğru deyib rəhmətliklər, elə goreşənlər var ki, az qalır adamın boğazındakı loxmasını çıxarıb yesin, onda qalmış göydə alma ola.

Hə, əzizlərim, yağış başlamamış yenə işıqları söndürdülər, söz sizdə..." - Yumorla yoğrulmuş bu atmacaların ideya-məzmun çəkisi bir başqa söhbətin mövzusudur.

Gənclik illərində dostlarla birlikdə Bakının yaraşıqlı küçələrini gəzməyi, Filarmoniya, Sabir bağlarındakı çayxanalarda çay içə-içə söhbətləşməyi xoşlayardı. Yaşa dolduqca doğma el-obası onu maqnit kimi özünə çəkməyə başladı. Artıq iki ildir boya-başa çatdığı yurduna qayıdıb sakit həyat tərzi keçirir, əlbəttə, buna "sakit" demək mümkünsə...

Bir dəfə keçmiş tələbə yoldaşımız Teymur Xaspoladovla onun kəndinə yollandıq - Ağsu rayonunun Küdrü düzü deyilən aran ərazisindəki Cəfərli kəndinə. Ünvana çatmaq üçün rayon mərkəzindən başlanan yolu az qala Kürdəmirə qədər getməli olduq. Səmədin deməyinə görə Küdrü fars dilindən tərcümədə quraqlıq mənasını verir və bu yerlərdən əvvəllər qışlaq yeri kimi istifadə edilib. Yazda üzü Baba dağa -- yaylağa, payıza qənşər Küdrüyə -- qışlağa üz tutublar. Gördüyümüz kənd-kəsək, o cümlədən Cəfərli sonradan salınıb və o anadan olanda Cəfərlidə vur-tut 30 ev olub.

Açığı, Şamaxı-Ağsu dolamalarının dağ mənzərələrindən sonra düzü-biyabanda yerləşən, texniki qulluq göstərilmədiyindən torpağı şoranlaşmış, cavanları qazanc sorağı ilə başqa yerlərə yollanmış, yazdan cəmi iki ay keçmiş boş çölləri saralıb-bozarmış Cəfərli kəndi adama qərib və darıxdırıcı təsir bağışlayır. Amma, necə deyərlər, Leylinin gözəlliyini görə bilmək üçün gərək ona Məcnunun gözü ilə baxasan, Cəfərli də Səmədin Leylisidir, həm uşaqlıq xatirələrini yaşadan doğmaca yurdu, həm də nağılları ilə böyüdüyü ağsaqqal və ağbirçəklərinin, həyatdan vaxtsız köçmüş can yoldaşının və oğlunun uyuduğu məbədgah - ziyarətgahdır.

Səmədin "jurnalistliyi" də bu kənddən başlanıb, rayon qəzetində, "Azərbaycan pioneri"ndə dərc olunan ilk qələm təcrübələri bu kəndə həsr olunub, yazarlığın "sağ ol" və qonorarını da, kənd yoluna baxımsızlıq haqqında "Kirpi"yə yazdığına görə qınaq və töhməti də burada alıb.

- Bax, ora qəbirstanlıqdı, Səidə ilə Nicatı həmin qəbirstanlıqda dəfn etmişəm... Hər gün buradan baxıb rəhmət diləyir, həyatın mənasını düşünürəm, gedib qəbirlərini ziyarət edirəm... - Ağır-ağır nəfəs alır, gözlərini bir müddət o tərəfdən çəkə bilmir, üz-gözünün ifadəsi ilə yorulub əldən düşmüş qərib bir yolçunu xatırladır. "Yox, o nə yayın qızmarında, nə də qışın şaxtasında buradan heç yana getməyəcək" - deyə fikrimdən keçirir və hələ tikib qurtara bilmədiyi qıvraqca evinin yönünü üzü qəbirstanlığa salmasının da fərqinə indi varıram... "İşə bax a, doğrudan da heç kəs heç kəsin kitabını oxumur indi... Heç tələbə yoldaşımızın da taleyindən düz-əməlli xəbər tutmamışıq." - Teymur da, mən də təəssüf içində "Allah hər ikisinə rəhmət eləsin" - deyirik.

Səmədin rəhmətlik həyat yoldaşı -- Səidə də jurnalist idi, bir müddət "Azərbaycan Tibb Jurnalı"nda işləmişdi, sonra Milli Təhlükəsizlik Nazirliyində çalışdı, tərcüməçi-zabit idi, mayor rütbəsi almışdı. Oğlu Nicat isə tarixçi-jurnalist idi, "Zerkalo" qəzetində şöbə müdiri vəzifəsində çalışırdı...

Teymurla eyvandan çıxıb qarşı tərəfdəki salxım saçaqlı söyüdün kölgəsinə sığınırıq. Aşağı sallanan sarımtıl-yaşılsov budaqlardan birində torbaya bənzəyən bir quş yuvası var. İstidir, təzə salınmış yurddakı pöhrələrdən fərqli olaraq nə vaxtsa su ilə dopdolu, qurbağa qurultusu kəsilməyən arxın kənarında basdırılmış bu ağac, bəhər verməsə də, geniş qol-budağı və sərinliyi ilə lap qənimətdir. Arxın o tayında isə qonşunun nar bağıdır, su bolluğundan yer də, ağaclar da yamyaşıldır. Səməd də öz sahəsində tinglər əkib, inanır ki, becərib hasilə çatdıracaq, barını görəcək...

*(Davamı 9-cu səhifədə)*

# ÖMRÜN PAYIZ NƏĞMƏLƏRİ

*(Əvvəli 8-ci səhifədə*

Tərəvəz ləkləri də salmışdı, amma hardansa peyda olmuş dovşan imkan vermədi. Az əvvəl: - Neyləsin, o da yaşamaq istəyir, yaşamaq üçün isə yemək lazımdır, - xəfif bir təbəssümlə demişdi. Və onu da demişdi ki, eyvanın yuxarısında, bax o küncdə qumru quşu yuva qurub bala çıxartmışdı. Bir dəfə köhnə kresloda əyləşib kitab oxuyurdum, gördüm bir ilan düz yanımdan, sanki mənə: "sən bir az yana çəkil, mən bir ora baş çəkib qayıdıram" - deyirmiş kimi haça dilini çıxarıb yalmana-yalmana həmən yuvaya tərəf sürünür. Öldürmədim, qovdum getdi. - Ölüm-itimin nə demək olduğunu yaxşı bilən liana da qıymazmış...

Hə, bir parça torpağa bağlanıb Səməd. Özünün dediyi kimi, əlli il şəhərdə yaşayıb cızma-qara ilə məşğul olsa da, torpaq adamı olaraq qalıb. İndi, özünün dediyi kimi, bir dovşan, bir bülbül və iki qumru ilə eyni həyətdə yaşayır. Teymur həyətdə aparılan işlərə baxıb öz-özünə danışırmış kimi: "Səməd elə tələbəlikdən səliqə-sahmanlı idi. Ger-geyimini də, qaldığı otağı da tər-təmiz saxlayardı. Yaxşı rəssamlığı da vardı..." - deyir.

Səmədin ən çox sevdiyi şairlər də torpaqdan, təbiətdən yazan şairlərdir. Xəsislik etmir, xoşuna gələnləri feysbuqda paylaşır, əlbəttə, öz heyranlığını bildirən şərhləri ilə:

"Payızın bu acı küləklərində
Düşmək istəməyən, ey sarı yarpaq!
Mən səni həmişə özüm bilmişəm...
Köçən durnaların qəmli səsiylə,
Bir də, göz yaşıyla islanmış torpaq
Mən səni həmişə özüm bilmişəm...

Bu misralar haçansa bir dəfə əl verdiyim istedadlı şairimiz Tofiq Nurəlinindi.

Ötən payızın yarpaq tökümü başladığı günlərdə oxumuşam və elə ürəyimə yatıb ki... İstədim Tofiq müəllimin payız ovqatını sizlər də yaşayasız. Elə ılıq, ürək sızıldadandı. Adam oxuyandan sonra elə darıxır, elə darıxır ki ..."

Payız ovqatlı Səməd hələ də əlini alnına söykəmiş vəziyyətdədi, sanki bizi də unudub, nə barədəsə dərin fikirlərə qərq olub... Bir azdan biz çıxıb gedəcəyik, o isə keçmiş xatirələri ilə başbaşa qalaraq tənha həyatını davam edəcək... Yer belləyib ağac əkəcək, gül-çiçək bəsləyəcək... Ustalıq edib daş qoyacaq, suvaq vuracaq... Tənhalıq üstünə hücum çəkəndə, ya kövrək duyğuları dilə gələndə itirdiyi xanımına "məktub" yazacaq :

Qada məni
Tutub dərd, qada məni.
Noola bir gün dönüb,
Salasan yada məni

Sənsiz olmur
Sünbüllər dənsiz olmur.
İllər ötür, qocalıram,
Bir günüm sənsiz olmur.

Hərdən Bakıdan gəlib onu yad edən dostlarını başına yığıb söhbətləşəcək, qonaqlarını qonşuluqda yaşayan qardaşıgilin bəslədiyi kənd çolpasının çığırtmasına qonaq edəcək, hərdən də Bakıya yollanıb nəvələri ilə görüşəcək, onları gəzməyə çıxaracaq... Tələbə dostları ilə də atüstü görüşməyə vaxt tapacaq, hər dəfə də: "Ölkədə uşaq mətbuatı yox səviyyəsindədi, mən isə çapa hazırladığım "Qaranquş"u vəsait üzündən çıxarda bilmirəm" - deyib şikayətlənəcək və "Uşaqlar, biz tərəfə də gəlin, darıxıram, axı", - deyə gileylənəcək. Yaxşı ki, Səmədi həmişə yad edən qardaşları var. Maşallah, beş qardaşdırlar, Allah bir tərəfdən alanda, o biri tərəfdən var edir...

Biz - tələbə yoldaşları isə onunla daha çox internet və mobil telefon vasitəsilə əlaqə saxlayır, hal-əhval tuturuq. Dostumuzun kənd həyatına, təbiətə bağlılığı, təsərrüfat qayğıları haqqında da bu yolla xəbər tuturuq.

Azərbaycan Rəssamlıq Akademiyasının professoru Ziyadxan Əliyevin Səməd haqqında belə bir dost sözü var: "...Birinin hamı üçün yaxşı ola bilməyəcəyi məlum məsələ olsa da, həyat bizi Səmədin belə istisna daşıyıcısı olduğuna inandırmışdır! ... Ən müxtəlif sınaqlara tuş gəlsə də, öz nuru ilə təmənnasız dostlar qazana bilmiş Səmədin həyatı və əməlləri bizlərə də nümunədir."

Fəsillər dəyişdikcə Səmədin qələmə aldığı mövzular da dəyişir, hiss, duyğu və düşüncələrini gah lirik şeir, gah miniatür hekayə, gah da xırda jurnalistika janrlarında yazdığı məqalələr vasitəsi ilə ifadə edir. Onun yazılarında kövrək bir ruh var. Bu ruh insanları təmizliyə, saflığa, vəfalı olmağa səsləyir. "Görən niyə gecikir bu payız?" adlı yazısından bir parçanı xatırladaq:

"...Ömrün payızını yaşayan tay-tuşlarım, tələbə yoldaşlarım üçün dünya daha o cilvədə, o rəngdə deyil. İndi ulduzlu yuxular görmürük. Qız qaytaran saçımız, daraq batmayan tellərimiz yoxdu daha. Artıq gözəllər yan keçir bizdən. Çünki onlarla qoşalaşıb dünyanın o başına gedə bilmərik...

İndi bahar rəmzi yaşıl deyil, payız çiçəklərinin sarışınlığı xoş gəlir bizə. Qaranquş civiltisindən çox, qərib durnanın səsinə qulaq verib kövrəlirik. Artıq biz zaman qəribiyik. Günəş batandan doğanadək keçən müddət bizim üçün yuxudan çox hesabat vədəsinə bənzəyir. Artıq şirin xəyalların deyil, xatirələrin istisinə qızınırıq... Bir vaxtlar od parçasıydıq, qayım-qayım qaynayırdıq, indi yersiz bir söz, naqafil bir zarafat da ürəyimizə toxuna bilər..."



Səfər vaxtımız bitdi. Səmədlə xudahafizləşib geriyə dönürük. "İnşallah, ad günündə yığışarıq! Sənin 70 illiyin nəinki Cəfərliyə, Bakıyacan səs salacaq" - deyə yarıciddi, yarızarafat bildirirəm. Və nədənsə, şair İbrahim Yusifoğlunun Səməd Məlikzadəyə həsr etdiyi bir şeirin həzin misraları canlanır xəyalımda:

Gen otaqlar ona dardır,
Çıxıb həyətdə gözləyir.
Deməyə çox sözü vardır,
Yetişən anı gözləyir...

Nə deyim, ay Səməd? Özün demiş, ilin və ömrün payızını eyni vaxtda yaşamaq çətindir. Allah dözüm və ömür versin! Tikdiyin evin, saldığın baxçanın xeyir-bəhərini görəsən! Nəşrini arzuladığın "Qaranquş"un axır ki, "qanad açıb" el-obalarımızı dolaşsın! Küdrü düzündən havalanan ömür nəğmələrin tükənməsin!

*2023*